**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**HƏVVA ƏSGƏR QIZI ADIGÖZƏLOVA**

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ REGİONAL SOSİAL İNFRASTRUKTURUN İNKİŞAFI PROBLEMLƏRİ (NAXÇIVAN MUXTAR RESPUBLIKASININ TIMSALINDA)

İxtisas: 5311. 01 – Müəssisələrin təşkili və idarə olunması

iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**NAXÇIVAN - 2013**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "İqtisadiyyat" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əli Qəmbəralı oğlu Əlirzayev**
iqtisad elmləri doktoru, professor,

**Rəsmi opponentlər:** **Əli Xudu oğlu Nuriyev**
AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor

**Rəşad Akif oğlu Səfərov**
iqtisad üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Əmək potensialından istifadə və kəndin sosial infrastruktur problemləri" şöbəsi

Müdafiə "_20__" _04____2013-cü il saat "____"-da Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin nəzdində yaradılmış D. 01. 211 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"____________ 2013-cü ildə göndərilmişdir.

**D. 01. 211 Dissertasiya Şurasının elmi katibi:**
**tarix üzrə fəlsəfə doktoru, dosent E. A. Şıxəliyev**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** İqtisadi və sosial inkişaf konsepsiyası müasir şəraitdə iqtisadi resursların insanların hərtərəfli inkişafına yönəldilməsi yolu ilə həyata keçirilir. Dunya iqtisadiyyatına inteqrasiya sistemindən və ölkəmizin daxili resurs potensialından səmərəli istifadə edilməsi sxemi əsasında insanların tələbatının bütün aspektlərinin idarə olunması və tənzimlənməsi dövlətin əsas vəzifəi kimi meydana çıxır. Nəzəri və təcrübi biliklərin istehsal və ya xidmətə tətbiqi məsələləri istər ölkədaxili istərsədə beynəlxalq aləmdə özünün qanunauyğunluqlarına əsaslanmışdır. Bu eyni zamanda özünü sahə xüsusiyyətləri ilə də təcəssüm etdirməkdədir.

Azərbaycan şəraitində regional inkişaf konsepsiyası ayrı-ayrı regionların, ərazilərin resurslarının tam, məqsədyönlü və səmərəli istifadəsi zəruriliyi ilə prioritet istiqaməti təşkil edir. Respublikamızda regionların sosial inkişafı resursların mövcudluğu, o cümlədən infrastrukturun təşkili ilə, onun imkanlarından maksimal dərəcədə istifadə edilməsi ilə, həmçinin istehsal və demoqrafik proseslərə təsiri ilə tənzimlənir.

Məsələyə tarixi yanaşma onu göstərir ki, bünövrəsi XX əsrin 40-cı illərinin sonunda qoyulan infrastruktur ilk dövrlərdə ancaq istehsal infrastrukturu kimi özünü göstərmiş və sənaye ilə kənd təsərrüfatında istifadə olunmuş, sonralar isə onun təniflәşdirilməsi mümkün olmuş və vahid əsasdan 3 infrastruktur qrupu fərqləndirilərək ayrılmışdır.

Elmi araşdırmanın əsas obyekti kimi ümumilikdə infrastrukturun əsas tərkib hissələrindən hesab olunan sosial infrastruktur seçilmişdir, dissertasiyada onun mövcud vəziyyətinə və inkişaf problemlərinin tədqiqinə xüsusi diqqət ayrılımışdır. Qeyd olunan infrastruktur istiqaməti öz mühümlüyü ilə seçilir. Belə ki, o, istehsal prosesinin birbaşa iştirakçısı rolunda çıxış etməsədə, onun baş verməsi üçün zəruri şərait yaradır. Bu, ilk növbədə sosial infrastrukturun genişspektrliliyindən irəli gəlir. Müvafiq infrastrukturun tərkibinə həm sosial adını daşıyan tam sahələr (məsələn, təhsil və elm, səhiyyə və bədən tərbiyəsi, mədəniyyət və incəsənət), həm də xidmət sferasının sahələri kimi qəbul olunan rabitənin, nəqliyyatın, ticarət və iaşənin sosial sferaya aid olan hissəsi daxildir. Bununla yanaşı su təsərrüfatı, sosial sığorta və sosial təminat, maliyyə və bank-kredit xidmətləri də sosial infrastrukturun tərkib komponentləri kimi çıxış edir. Məhz deyilənlərin sistemləşdirilməsi nəticəsində sosial infrastrukturun tam miqyası ilə qarşılaşmaq mümkündür ki, bu zaman da ərazi, iqtisadi sahə və sair xüsusiyyətlər nəzərə alınmalıdır.

Sosial infrastrukturun ərazi prinsipləri, təşkili, tənzimlənməsi və bazar prinsiplərinə, perspektiv islahatlara uyğun planlaşdırılması regionların inkişafının əsas meyarıdır. Bu baxımdan qeyd etmək yerinə düşər ki, regional inkişaf kontekstində infrastrukturun sistemli və kompleks şəkildə tədqiqi, planlaşdırılması və onun fəaliyyət (xidmət) istiqamətlərinin tənzimlənməsi öz aktuallığı ilə seçilən mövzulardandır. Dissertasiyada həmçinin sosial infrastruktur komponentlərinin həm istehsal prosesinə təsiri, onun əhəmiyyəti, həmdə sosial infrastrukturun daxilində olan komponentlərin biri-birinə qarşılıqlı təsiri araşdırılmışdır. Məhz bu əsasda həm sosial infrastrukturun müstəqil istiqamətlərinin qarşılıqlı təsiri və əlaqələndirilməsinin, həm də həmin istiqamətlər daxilində formalaşmış tərkib hissələrin regional müstəvidə qarşılıqlı əlaqələndirilməsinin tədqiqi məqsədəuyğun hesab edilmişdir.

İşdə sosial infrastrukturu xarakterizə edən əsas məqamlardan birini də onun tərkib hissələrinin funksional fəaliyyəti təşkil edir. Belə ki, sosial infrastrukturun tərkibi geniş olsa da, onun lazımsız komponenti yoxdur və onlardan hər biri öhdəsinə düşən spesifik vəzifələri icra etməklə həm qeyd olunan infrastruktur qrupunun, həm də ümumilikdə təsərrüfatın, regionun, sahənin və ya ümumilikdə ölkənin irəli getməsinə, keyfiyyətcə daha yüksək pilləyə qədəm qoymasına şərait yaradır.

Tədqiqatda işıqlandırılan məsələlərdən birini də sosial infrastrukturun ümumi xarakter və xassələri ilə yanaşı onun konkret regoin səviyyəsində təzahür forması və xüsusiyyətləri təşkil edir. Bu baxımdan sosial infrastrukturun Naxçıvan Muxtar Respublikasında real vəziyyəti, meyli, ümumilikdə və ayrı-ayrı sahələr üzrə inkişaf dinamikası sistemli və kompleks şəkildə öyrənilmişdir.

Dissertasiyada sosial infrastrukturun mövcud vəziyyəti ilə yanaşı, onun regional səviyyədə təşkilinin təkmilləşdirilməsi üzrə də məqsədyönlü araşdırmalar həyata keçirilmişdir.

**Problemin öyrənilmə səviyyəsi.** Aparılmış araşdırmalardan məlumdur ki, sosial infrastrukturun ayrı-ayrı sahələri tədqiqat obyekti olaraq öyrənilsə də, onların kompleks qaydada, sistemli şəkildə, qarşılıqlı əlaqə və asılılıq şəraitində tədqiq olunması həyata keçirilməmişdir. Problemin öyrənilmə səviyyəsi, infrastrukturların ayrı-ayrı istiqamətləri üzrə fərqli problemlər respublikamızın iqtisadçı alimləri Ə. Əlirzayev, F. Rəhmanov, V. Novruzov, A. Salmanov, A. Əliyev, Ə. Nağıyev, A. Quliyev, T. Vəliyev, S. Xəlilov, R. Abdullayeva, A. Rüstəmov, A. Şirəliyev, N. Əhmədov, H. Məmmədov, C. Mahmudov, habelə xarici ölkələrin alimlərindən V. Vlasov, N. Rimaşevskaya, P. Borodin, J. Taşenko və başqaları tərəfindən tədqiq edilmişdir. Lakin çoxşaxəli tədqiqatlar bir daha göstərir ki, sosial

infrastrukturun sahələri fərdi formada və respublika səviyyəsində öyrənilsədə, lakin region səviyyəsində və kompleks şəkildə araşdırılmamış və işlənməmişdir.

Yuxarıda göstərilən müəlliflərin əsərlərini yüksək qiymətləndirərək, qeyd etmək lazımdır ki, tərəfimizdən hazırlanan dissertasiyada sosial infrastrukturun mahiyyəti, məzmunu, təsnifatı, inkişaf prinsipi və qanunauyğunluqları, region səviyyəsində formalaşması və inkişafına təsir edən amillər, onun perspektiv istiqamətləri çoxtərəfli və qarşılıqlı əlaqələndirilmiş və tədqiq olunmuşdur.

Aparılmış işlərin əsas məqsədi – Naxçıvan Muxtar Respublikasının timsalında region amillərini nəzərə alaraq, blokada şəraitində yaşayan muxtar respublikanın təbii-coğrafi, demoqrafik və digər xüsusiyyətlərini, həmçinin "Naxçıvan iqtisadi modeli"nin əsas müddəalarını nəzərə alaraq təşkilati idarəetmə və tənzimləmə mexanizmlərinin nəzəri və metodoloji əsaslarını hazırlamaq, onların təcrübədə özlərini necə ifadə edəcəyi haqda sistemli fikirlər formalaşdırmaqdır. Belə ki, məhz nəzəri fikirlərin təcrübədə tətbiqinin mümkünlüyü daha yüksək nəticələr əldə etməyə, dəyərli təklif və tövsiyyələr hazırlamağa imkan verir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Müasir şəraitdə regionların sosial-iqtisadi inkişafı və əhalinin rifahının yüksəldilməsi infrastruktur sahələrinin kompleks, çoxistiqamətli inkişafı, onların səmərəli təşkili və tarazlı irəliləməsinin dinamikası mühüm əhəmiyyət kəsb edir. Sosial infrastruktur münasibətləri istehsal, inkişaf və əhalinin tələbatının ödənilməsi kontekstində baxılmaqla elmi və praktiki tələblər üzərində araşdırılır. Qeyd olunanlar nəzərdə tutulmuş komponentlərin həm birgə, həm də fərdi qaydada təsirinin öyrənilməsinə xüsusi diqqəti ayırmağı tələb edir.

Müasir şəraitdə sosial infrastruktur ərazi-sahə problemlərinə və funksional tənzimləmə aspektlərinə malikdir ki, onların da hərtərəfli araşdırılması bir sıra metodoloji və praktik əhəmiyyətə malik tərəflərlə səciyyələnir. Bu baxımdan dissertasiya işinin əsas məqsədi regional aspektdə sosial infrastrukturun vəziyyəti və dinamikasını, inkişaf istiqamətlərini əsaslandırmaqla yanaşı, onun həlli yollarını göstərmək təşkil edir. Bu məqsədlə aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuş və ardıcıllıqla araşdırılmışdır:

- ✓ sosial sferanın mahiyyətini, onun iqtisadi inkişafda rolunu və əsas istiqamətlərini hərtərəfli, təkmil şəkildə və qarşılıqlı əlaqələndirilmə formasında müəyyənləşdirmək;
- ✓ sosial infrastrukturun planlaşdırılmasının və tənzimlənməsinin metodoloji əsaslarını tədqiq etmək;

- ✓ sosial infrastrukturun regional xüsusiyyətlərini və onların inkişaf istiqamətlərini Naxçıvan Muxtar Respublikasının timsalında nəzərdən keçirmək və açıqlamaq;
- ✓ sosial infrastruktur sahələrinin planlaşdırılması və idarə olunması, onların mövcud tənzimlənməsi xüsusiyyətlərini tədqiq və təhlil etmək;
- ✓ sosial infrastrukturun inkişafının maliyyə, büdcə və sahibkarlıq istiqamətlərini araşdırmaq;
- ✓ Naxçıvan Muxtar Respublikasında sosial infrastruktur sahələrinin formalaşması və inkişafı üzrə xüsusiyyətlərin və istiqamətlərin öyrənilməsini həyata keçirmək;
- ✓ muxtar respublikada sosial infrastrukturun fəaliyyətinin mövcud vəziyyətini və perspektiv dövrlər üzrə tənzimlənməsi istiqamətlərini proqnozlaşdırmaq;
- ✓ sosial infrastrukturun regional səviyyədə təşkilati idarəetmə quruluşu üzrə mövcud vəziyyəti qiymətləndirmək, onun təkmilləşdirilməsi istiqamətində təklifləri hazırlamaq və s.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyada həyata keşirilmiş araşdırmanın obyektini Naxçıvan Muxtar Respublikasında sosial infrastrukturun sistemi və vahidləri, onlardakı mövcud vəziyyət və inkişaf perspektivləri təşkil edir.

Predmet olaraq sosial infrastrukturun regional səviyyədə cəmiyyətdə və iqtisadi sferadakı münasibətlərdə yeri və rolunun tənzimlənməsi qəbul edilmişdir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Müvafiq tədqiqatın nəzəri-metodoloji əsaslarınıAzərbaycanın və xarici ölkələrin iqtisadçı alimlərinin elmi əsərləri və araşdırmaları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, ayrı-ayrı nazirliklərin qərar və sərəncamları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin hesabatları, həmçinin bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə sosial infrastrukturun formalaşması və inkişaf etdirilməsi təcrübəsi, onun nəzəri-metodoloji əsaslarına və təkmilləşdirilməsi istiqamətlərinə dair müxtəlif elmi düşüncələr və baxışlar, konsepsiyalar və nəzəriyyələr təşkil edir.

Dissertasiya işi müşahidə, qruplaşdırma, sistemli təhlil, sintez, zəncirvari əlaqələndirmə, balans, digər iqtisadi və riyazi-statistik metodlardan istifadə edilməklə yerinə yetirilmişdir.

Dissertasiya işində bazar tipli inkişaf modelinə uyğun islahatların konsepsiyaları, proqramları və normativ-hüquqi sənədlər yerli xüsusiyyətlər

nəzərə alınmaqla istifadə olunmuşdur. Araşdırmada Azərbaycanın və xarici ölkələrin alimlərinin tədqiqatlarının nəticələrinə də müraciət olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Mövzu üzrə problemin öyrənilməsi, tədqiqi, təhlili və ümumiyyətlə işlənib hazırlanmasında faktiki və rəqəm informasiyası mənbəyi kimi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin müvafiq statistik məlumatlarından, eləcə də müxtəlif mülkiyyət formalarına məxsus olan və məqsədyönlü fəaliyyət göstərən müəssisə və təşkilatların uçot materiallarından, hesabat və digər sənədlərindən, müvafiq elmi-tədqiqat institutlarının apardığı tədqiqat işlərindən, iqtisadçı alimlərin araşdırma yönümlü əsərlərindən istifadə edilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi.** Mövcud tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- ✓ sosial sferanın mahiyyəti, onun iqtisadi inkişafda rolu və əsas istiqamətləri qarşılıqlı əlaqələndirilmiş şəkildə araşdırılmışdır;
- ✓ sosial infrastrukturun planlaşdırılması, idarə edilməsi və tənzimlənməsinin metodoloji əsasları sistemləşdirilmiş və tədqiq edilmişdir;
- ✓ sosial infrastrukturun regional xüsusiyyətləri Naxçıvan MR-in timsalında açılmışdır;
- ✓ sosial infrastruktur sahələrinin planlaşdırılması, idarə olunması və tənzimlənməsi xüsusiyyətləri təhlil edilmişdir;
- ✓ sosial infrastrukturun inkişafının maliyyə-büdcə və sahibkarlıq istiqamətləri qiymətləndirilmişdir və onların müasir inkişaf mərhələsində təkmilləşdirilməsi imkanları nəzərdən keçirilmişdir;
- ✓ muxtar respublikada sosial sahələrin mövcud vəziyyəti, onların inkişaf dinamikası və perspektivləri araşdırılmışdır və s.

**Tədqiqat işinin nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiya işinin əsas nəticələri nəzəri və praktiki əhəmiyyət kəsb edir. Nəzəri cəhətdən əhəmiyyəti sosial infrastrukturun iqtisadi mahiyyətinin, onun iqtisadi və sosial rolunun, həmçinin islahatlar sistemində əsas istiqamətlərin müəyyənləşdirilməsi mümkünlüyündən ibarətdir. İfadə olunmuş istiqamətlər sosil infrastrukturun nəzəri baxımdan sistemli araşdırılmasına imkan yaradır.

Sosial infrastrukturun təcrübi rolu isə əhalinin rifahının yaxşılaşdırılmasında, məşğulluq səviyyəsinin yüksəldilməsində, insan inkişafı indeksinin müsbət mənada artırılması yollarının müəyyənləş-dirilməsində özünü biruzə verir. Göstərdiklərimiz istiqamətlər də öz

növbəsində sosial infrastrukturun təcrübədə inkişafına və təkmilləşməsinə qarşılıqlı təsir edir ki, bu da son nəticədə cəmiyyətin iqtisadi və sosial inkişafını irəli aparmış olur, yeni keyfiyyət dəyişikliklərinə yol açır.

**İşin aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiya işinin nəticələri elmi konfranslarda, beynəlxalq və ölkədaxili simpoziumlarda məruzə edilmiş, elmi-nəzəri seminarlarda müzakrə olunmuşdur. Araşdırma işi üzrə alınmış nəticələr Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinə təqdim olunmuş və tətbiq üçün qəbul edilmişdir (məktub № 01/474; 17 iyul 2012-ci il).

Dissertasiyadakı araşdırmanın məzmununu əhatə edən 6 məqalə və tezis dərc olunmuşdur.

**Dissertasiya işinin həcmi və quruluşu.** Dissertasiya işi girişdən, 3 fəsil və 9 paraqrafdan, nəticə bölməsi və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İş 1, 5 intervalda kompüter yazısı ilə 152 səhifə həcmindədir. Burada 18 cədvəl və 11 sxem verilmişdir.

Ədəbiyyat siyahısında tədqiqat prosesində istifadə edilmiş 120 ədəbiyyatın adı göstərilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti göstərilir, həmçinin işin elmi yeniliyi, elmi-nəzəri və praktik cəhətdən əhəmiyyəti və aprobasiyası şərh edilir, nəşr olunmuş elmi əsərlər və işin strukturu haqqında ümumiləşdirilmiş məlumatlar verilir.

Dissertasiya işinin birinci fəsli **“Sosial infrastrukturun mahiyyəti, formalaşma mənbələri və tədqiqinin nəzəri-metodoloji əsasları”** adlanır. Burada qeyd edilir ki, istehsal və sosial infrastrukturları ölkəmizin sosial və iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən sahələrdən hesab olunur. Bu sahələrin əhəmiyyəti bazar əlaqələrinin genişləndiyi müasir dövrdə daha da artmışdır və buna görə də onların öyrənilməsi zərurəti yaranır. Respublikamızın infrastruktur sahələrinin vəziyyəti və inkişaf problemlərinin araşdırılması məqsədilə əvvəlcə infrastruktur anlayışının mahiyyət və məzmunu açıqlanır. İfadə olunur ki, XX əsrin 40-ci illərinin sonundan istifadə olunan bu termin əsasən xalq təsərrüfatının mühüm sahələri olan sənaye və kənd təsərrüfatı istehsalını, əhaliyə xidmət edən sahələr kompleksini özündə birləşdirirdi.

İqtisadi ədəbiyyatlarda infrastrukturun istehsal, bazar və sosial qruplara ayrılması vurğulanır:birinci qrupa bilavasitə maddi istehsala xidmət edən sahələr (dəmir və avtomobil yolları, yük nəqliyyatı və s. ), ikinci qrupa alqısatqı məkan və strukturları (birjalar, yarmarkalar, auksionlar, lizinq

kompaniyaları və s. ), üçüncü qrupa isə əsasən sosial sahə və göstəriciləri özündə birləşdirən infrastruktur sahələri (kadr hazırlığı, məişət xidməti, elm, maarif, səhiyyə, mədəniyyət, sərnişin nəqliyyatı) və s. daxildir. Baxmayaraq ki, infrastrukturun heç bir sahəsi son məhsulu istehsal etmir, onların maddi istehsal prosesində bilavasitə iştirakı müşahidə olunmur, ancaq o, iqtisadi mahiyyətinə görə cəmiyyətin iqtisadi gücünün tərkib hissəsi olub, bütövlükdə iqtisadiyyata, onun iri sahə və komplekslərinə xidmət edir.

Makrosəviyyədə infrastruktur cəmiyyətin bütün üzvlərinin ehtiyaclarının ödənilməsini və xalq təsərrüfatının səmərəli inkişafını təmin edən və istehsalın bütün əsas sahələri üçün zəruri olan ümumi iqtisadi və sosial şərtləri özündə birləşdirir. Bu səviyyədə infrastruktur müəyyən regionda, ərazidə yerləşən əsas istehsal müəssisələrinin səmərəli əlaqələrini və əhalinin normal fəaliyyətini təmin edən infrastruktur həlqələr sistemini əhatə edir. Mikrosəviyyədə isə infrastruktur ayrı-ayrı müəssisə və ya sahələrin normal fəaliyyəti üçün zəruri köməkçi həlqələrdən ibarətdir. Adətən mikrosəviyyədə infrastrukturu istehsal və sosial-məişət infrastrukturuna ayırırlar. Bu cür bölgü iqtisadi və sosial inkişaf üçün böyük əhəmiyyət kəsb edir. İqtisadi inkişafın normal getməsi üçün bunların hər ikisi də zəruridir. Belə ki, təkcə istehsal prosesi üçün zəruri olan komponentlərin təmin olunması hələ tam mənalı fəaliyyətin təşkili demək deyildir. Digər tərəfdən işçi qüvvəsi canlı orqanizmdir, özünün müxtəlif sosial tələbatına malik sistemdir ki, bu da hər hansı mikro və makrosəviyyəli işlərin qurulmasında mütləq diqqətə alınmalıdır.

İnfrastrukturun bu və ya digər sahəsinin olmaması və ya onların iqtisadiyyatın əsas sahələrinin tələblərinə cavab verməməsi həmin sahələrin inkişafının ləngiməsinə və nəticədə böyük itkilərə səbəb olur, hətta bəzi hallarda bu sahələrin fəaliyyəti dayanır. Adətən istehsal infrastrukturu adlandırdığımız bu sistem infrastrukturun digər qolu olan sosial infrastrukturla vəhdət halına gətirildikdə, tammənalı fəaliyyətin qurulması və icrasından söhbət gedə bilər.

İnfrastruktur obyektlərinin fəaliyyətində baş verən çatışmazlıqlar bütövlükdə iqtisadi sahələrin inkişafına mənfi təsir göstərir, onların istehsal templərini, qarşılıqlı əlaqələrinin intensivliyini zəiflədir. İnfrastrukturun qrupları iqtisadiyyatın bütün sahələrindəki problemlərin həllində mühüm rol oynayır. İqtisadi artımın sürəti, iqtisadiyyatın tarazlı inkişafı, ictimai istehsalın səmərəlliyi, region və rayonların kompleks inkişafı və ərazi-istehsal komplekslərinin formalaşması, müasir inteqrasiya prosesləri və s. bu kimi problemlər infrastrukturun vəziyyəti ilə bilavasitə əlaqəlidir. Bu mənada infrastrukturun inkişafı əsas istehsal sahələrinin inkişafından geri qalmamalı,

onunla yanaşı, və hətta ondan öndə inkişaf etdirilməli, sistemli investisiya qoyuluşları zamanı bu amil nəzərə alınmalıdır. Səviyyələr üzrə də infrastruktur təsnifləşdirilir ki, bu zaman makroiqtisadi, regional, sahə və ayrıca, lokal, fərdi müəssisələrin infrastrukturu fərqləndirilir. [1]

İqtisadiyyatın və sosial sahənin cəmiyyətin inkişafındakı rolu qiymətləndirilərkən bəzən belə nəticə çıxarılır ki, iqtisadiyyat əsasdır və başlıca diqqət iqtisadiyyatın artırılmasına yönəldilməlidir. Sosial problemlərin həlli isə ikinci dərəcəli məsələ hesab edilirdi; öz növbəsində, sosial sahəyə vəsaitin ayrılması isə qalıq prinsipi əsasında həyata keçirilirdi. Yəni, buraya ancaq istehsaldan artıq qalan vəsaitlər yönəldilirdi. İqtisadiyyat inkişaf etdirilir, insanların fəaliyyəti üçün tələb olunan sosial şərait isə ancaq ona uyğunlaşdırılırdı, bəzən isə heç bu tarazlaşdırma işləri üçün də vəsait kifayət qədər yetmirdi. İqtisadiyyatın sosial inkişafda mühüm rol oynaması onların münasibətlərinin ancaq bir tərəfini göstərir. Məlumdur ki, iqtisadiyyat həyatın demək olar ki, əksər sahələrinə təsir edir, ancaq özü də digər sahələrin təsiri altında inkişaf edir. Onun inkişafı eyni zamanda sosial vəzifələrin həyata keçirilməsinə xidmət edir, belə ki, sosial və iqtisadi inkişaf biri-digərini tamamlamalıdır. Hər iki sahə biri-birindən qarşılıqlı sürətdə asılıdır və biri digərinin inkişafını şərtləndirir.

Sosial infrastruktur sahələrinin inkişafı istehlak məsrəflərinin azalması üçün şərait yaradır ki, bu da öz növbəsində ictimai istehsalda əhalinin məşğulluğunun artmasına imkan yaradır. Sosial infrastrukturun təhsil, səhiyyə, mədəniyyət, incəsənət kimi sahələrinin inkişafı şəxsiyyətin bilavasitə hərtərəfli formalaşmasını, elmi-texniki tərəqqinin tələblərinə uyğun ixtisasının artmasını, iş qabiliyyətinin bərpasını, sağlamlığını təmin edir. Bu isə öz növbəsində işçi qüvvəsinin təkmilləşdirilməsində, əmək məhsuldarlığının artmasında, iş vaxtından istifadənin yaxşılaşdırılmasında öz əksini tapır, ev əməyinin bir sıra funksiyalarına uyğun xidmət göstərən qeyri-istehsal sahəsinin inkişafı işçilərin boş vaxtının artmasına və ondan daha səmərəli istifadəyə səbəb olur, şəxsiyyətin hərtərəfli, harmonik inkişafına şərait yaranır.

Respublikamızın bazar münasibətləri sisteminə keçməsi, ictimai əmək bölgüsünün dərinləşməsi əsasında bazar subyektlərinin çoxalması, onların kooperasiya əlaqələrinin yaranması və artması, dünya ölkələri ilə əlaqələrin dərinləşməsi, ixtisaslı kadrlara olan ehtiyacın meydana çıxması infrastruktur adlanan sahələrin də inkişaf etdirilməsini obyektiv iqtisadi və sosial tələbata çevirmişdir. İnfrastruktur sahələrinin inkişaf etdirilməsini

---

[1] Abdullayeva R. A. Sosial sferanın iqtisadiyyatı. Bakı: Asiya, 2009, s. 171.

ölkəmizin iqtisadi müstəqilliyə səy göstərdiyi hazırki şəraitdə istehsalın dərin böhrandan çıxması, onun intensivləşdirilməsi və səmərəlliyinin yüksəldilməsi şərtlərindən biridir. Buna görə də diyarımızda indiyə qədər olan infrastruktur sahələri – nəqliyyat, rabitə və digər kommunikasiya sistemləri, infrastrukturun sosial yönümlü sahələri inkişaf etdirilməlidir. Azərbaycanın infrastruktur sahələri onun regional xüsusiyyətləri, sosial-iqtisadi, təbii iqlim, tarixi, milli demoqrafik xarakterli amillər kompleksi nəzərə alınmaqla formalaşdırılır. Respublikada sosial infrastruktur sahələrinin inkişafı üçün zəruri şərait mövcuddur. Bu ilk növbədə güclü iqtisadi, elmi-texniki, kadr və digər potensialların mövcudluğundan qaynaqlanır. Ölkəmizin təbii-coğrafi xüsusiyyəti – kurort və qoruq yerlərinin, müalicəvi və mineral suların çox olması, ərazinin 30%-nin kurort məqsədləri üçün yararlılığı 1 milyon istitahət yeri olan komplekslər yaratmağa imkan verir. Onun spesifik iqlimə malik olması, şəhər və kəndlərin su təchizatı, yaşıllaşdırma probleminin mövcudluğu regionun bu istiqamətlərdə də sürətli inişafını tələb edir.

Ölkə ərazisində məhsuldar qüvvələr qeyri-bərabər yerləşdirilmiş, onun iqtisadi potensialının əsas hissəsi Abşeron yarımadasında cəmlənmişdir (Bakı, Sumqayıt və Xırdalan şəhərlərində). Öz növbəsində "istehsalın və əhalinin qeyri-bərabər yerləşməsi" adlandırdığımız faktor da iqtisadi rayonlar üzrə sosial sahələrin də qeyri-bərabər yerləşməsinə səbəb olmuşdur. Bu isə iri və kiçik şəhər və kənd yerlərində əhaliyə xidmətin qeyri-bərabər olmasına şərait yaradır. Azərbaycanda kənd əhalisinin sayı 52% olduğu halda, məişət xidmətlərilə təminat xüsusi kütlə baxımından şəhərdəkindən xeyli aşağıdır. [2] Bu ilk növbədə onunla izah olunur ki, kənd yerlərində adı çəkilən məişət xidməti növlərindən istifadə dərəcəsi aşağıdır, həmin sahələrdə "pul axını"nın sürəti zəifdir və tənzimləyici itisadi alət və vasitələrlə uzlaşmır. Cəmiyyətin sosial sferası sosial proses subyektlərinin fasiləsiz təkrar istehsalı zərurətindən yaranan obyektiv tələbatı formalaşdırdığı, cəmiyyətə məxsus olan, bütöv, daim yeniləşən və təkmilləşən altsistemdir. Başqa sözlə, bu, "insanın öz həyatını, yaşayış formasını təkrar istehsal edən fəaliyyət sahəsi, cəmiyyətin sosial funksiyanı həyat keçirən fazasıdır". Burada insanın sosial və vətəndaş hüquqları reallaşır ki, bu da digər şərtlərlə yanaşı sosial infrastrukturun daxili qruplaşmasındanda irəli gəlir. Qeyd olunan istiqamətdə sosial infrastruktur haqda daha aydın təsəvvür formalaşdırmaq üçün işdə bu infrastruktur qrupunun nümunəvi tərkibini ifadə edə biləcək aşağıdakı sxemdən istifadə edilməsi nəzərdə tutulub.

---

[2] Azərbaycanın statistik göstəriciləri 2010. DSK, Бакы, Səda, 2011, s. 36.

*Sxem 1.*




Mənbə: Sxem müəllif tərəfindən hazırlanıb.

Sosial sfera əşya, prosesual, ideya və insani cəhətli komponentlər dəstinə malikdir. Bu struktur vahidlərinin qarşılıqlı əlaqəsi, özünəməxsus keyfiyyət xüsusiyyətlərini yaradır. Bunlara sosial infrastruktur və onun istehsal etdiyi məhsullar, təhsil, səhiyyə, sosial təminat və məişət xidməti prosesləri, sosial sferanın idarəetmə orqanları və institutlar, əhalinin istehlakçı davranışının mexanizmləri və normativ tənzimləmə bazası aid edilir. Sosial sferanın bütün komponentlərinin yaranması və mövcudluğu, onların xüsusiyyəti, sosial sferanın əsas funksiyası – həyat fəaliyyətinin

subyekti olan insanın sosial təkrar istehsalı funksiyası, onun həyat təminatı ehtiyatlarının təkrar istehsalı və sosial institutlarının təkrar yaradılması funksiyaları ilə şərtləndirilir.

Dissertasiya işinin ikinci fəsli **"Sosial infrastrukturun planlaşması və tənzimlənməsi mexanizmləri"** adlanır. Burada ilkin olaraq Naxçıvan Muxtar Respublikasında 20 ildə həyata keçirilən iqtisadi islahatlara nəzər salınmış , qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasının, iqtisadiyyatın dinamik inkişafına təkan verməsi və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırması elmi cəhətdən qiymətləndirilmişdir. Əsaslandırmalar statistik məlumatlarla möhkəmləndirilmişdir. Regionların investisiya potensialından tam və kompleks şəkildə istifadə olunması, yeni sənaye, kənd təsərrüfatı, xidmət müəssisələrinin yaradılması, məşğulluq səviyyəsinin yüksəldilməsi, əhalinin təhsil, səhiyyə və digər sosial təminatlarının daha da yaxşılaşdırılması tədbirləri ölkənin iqtisadi və sosial təhlükəsizliyinin təmin olunması, daxili bazarın qorunması, onun idxaldan asılılığının minimuma endirilməsi və bir sıra bu kimi strateji dövlət maraqlarına xidmət edir.

Burada qeyd edilmişdir ki, ümumi inkişaf fonunda Naxçıvan MR-in iqtisadiyyatı və sosial həyatı özünəməxsusluğu ilə fərqlənir. İşğalçı Ermənistan Respublikasının Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində ölkənin əsas hissəsindən ayrı düşərək iqtisadi və nəqliyyat əlaqələri baxımından blokada şəraitində yaşamağa məhkum olunmuş muxtar respublika mövcud çətinliklərə baxmayaraq Azərbaycanda həyata keçirilən genişmiqyaslı quruculuq prosesində fəal iştirak edir. Həmçinin yadda saxlanılmalıdır ki, qeyri-istehsal sosial tələbatın ödənilməsinə xidmət etdiyi üçün həmin sahələrin planlaşdırılması və tənzimlənməsi məqsədilə istifadə olunan göstərici və metodlar əhali ilə, onun həyat səviyyəsi ilə əlaqədardır. Sosial sahələrin hər biri özünəməxsus planlaşma və tənzimləmə mexanizmlərinə malikdir, çünki bu sahələrin hər birində konkret xidmət planlaşdırılır. Ona görə də, səhiyyə, təhsil, məişət xidməti, digər xidmət sahələri planlaşdıqda, idarə olunduqda və tənzimləndikdə ümumi planauyğunluqlar kəsb edir və hər bir konkret xidmətin növünə uyğun metodiki göstəricilərə malikdir. Sosial xidmət sahələrinin planlaşdırılması iqtisadi və sosial inkişaf planının tərkib hissəsidir. Özünün həcmi, miqyası etibarı ilə sosial sahələr öz işləyənlərinin və onun xidmətindən istifadə edənlərin sayı əhalinin 50%-nə qədərini təşkil edir. Təhsil sistemində, səhiyyədə, məişət, mənzil-kommunal, nəqliyyat xidməti ilə hər bir adam öz tələbatını gündəlik ödəyir. Ona görə də sosial sahə kimi, planlaşmada onun göstəricilər sistemi müəyyən olunur. Bu göstəricilər hər bir konkret sahədə əhaliyə göstərilən xidmətin ümumi həcmi, onun dəyər göstəricisi, bu xidmət sahəsində işləyənlərin

sayı, həmin sahəyə qoyulan kapital qoyuluşu və onun maddi-texniki bazası əsaslandırılır. Beləliklə, sosial obyektlərin və sosial sahəlrin xidmət edəcəyi mərhələlərin sayı, yaxud xidmətin ümumi miqdarı həmin obyektlərin gücü ilə qiymətləndirilir.

Naxçıvan MR-də sosial tələbat öz məzmunu, xarakteri etibarı ilə maddi və mənəvi nemətlərə olan tələbata nisbətən çox fərqlidir. Sosial tələbat həcmi quruluş baxımından dinamik dəyişən bir prosesdir. O, mahiyyət etibarı ilə həm iqtisadi sahələrinin quruluşu, həm də "coğrafi-iqtisadi əhali" ilə bağlıdır. Ona görə də onun planlaşmasında ilk növbədə insanların ərazi üzrə məskunlaşmasını, onların hər bir regionda məşğuliyyətini, maddi təminat səviyyəsini, demoqrafik tərkibini nəzərə almaq lazımdır. Buna görə də sosial obyektlərin ümumi həcmi, onların potensial gücləri xalq təsərrüfatı planında müəyyən olunur, makrogöstəricilər kimi istifadə olunur. Sonra bu göstəricilər məhsuldar qüvvələrin yerləşməsi və inkişafı planına uyğun olaraq ərazi və sahə üzrə planlaşdırılır və tənzimlənir. Sahə üzrə planlaşmada hər bir xidmət sahəsinin makroiqtisadi plan göstəriciləri müəyyən olunur. Məsələn, səhiyyə planında bütövlükdə il ərzində səhiyyə xidmətinin həcmi, onun iki xidmət üzrə strukturu, səhiyyənin maddi-texniki bazası, işləyənlərin sayı müəyyənləşdirilir. Nəqliyyat planında müvafiq xidmətin ümumi göstəricisi ton/km-lə ölçülür. O cümlədən, əhaliyə xidmətin, yükdaşıma və əhalidaşıma üzrə xidmətlərin ümumi miqdarı uyğun göstəricilərlə müəyyən olunur.

Təhsilin planlaşmasında təhsil sahəsində işləyənlərin ümumi sayı, təhsilə qoyulan kapital qoyuluşu, tələbə kontingentinin sayı və s. planlaşdırılır, "təhsilin son məhsuluna" olan tələbat və digər zərui əlamətlər əsasında tənzimlənir. Beləliklə, xalq təsərrüfatı planında sosial sahələrin hər biri üzrə makroplan tərtib olunur. Bu sahələrin daxilində isə onların ərazi üzrə təşkilinin və hər bir xidmətin ayrılıqda planlaşdırılması göstəriciləri işlənib hazırlanır. Məsələn, səhiyyənin Azərbaycanın regionları üzrə yerləşdirilməsi hər bir regionda həkimlərin sayı, hər 1000 nəfərə düşən səhiyyə xidmətlərinin miqdarı, çarpayılarının miqdarı, tibbi dərmanlar təchizatı planlaşdırılır. Bu göstəricilər bütün sosial sahələrdə təşkilati-iqtisadi mütləq və dəyər göstəriciləri ilə ifadə olunur. Nisbi göstəricilər sosial sahələrin planlaşmasında tapşırıqların (proqnozların) yerinə yetirilməsi, onların başqa sahələrlə müqayisəsi üçün istifadə olunur. Nisbi göstəricilər kimi tələbatın ödənilməsi, fondlarla silahlanma, sosial obyektlərin maddi-texniki təchizatı, hər min nəfər canlı əməyə düşən maddi-texniki baza və s. daxildir. Bu göstəricilərin dinamikası, dəyişmə meylləri xidmət sahələrinin təyini və proqnozlaşdırılması üçün istifadə olunur, onların idarə olunmasına və tənzimlənməsinə xidmət edir.

Uzun müddət sosial obyektlərin planlaşdırılmasında sosializm şəraitində mərkəzləşdirilmiş plan göstəriciləri və qalıq prinsipləri tətbiq olunurdu. Vahid standartlar əsasında ümumi normativlərə uyğun olaraq sosial obyektlərin hər bir regionda differensial formalaşma xüsusiyyətlərini nəzərə almadan aparılırdı. Bu da öz növbəsində hər bir regionda tarixi, ənənəvi formalaşmış tələbat sistemini nəzərə almırdı. Regionun imkanını nəzərə almadan büdcənin qalığı hesabına modelləşdirilirdi. Sosial infrastruktur sahələrin planlaşması iqtisadiyyatın planından sonra istifadə olunmamış vəsait kapital hesabına inkişaf etdirilirdi. Bu da öz növbəsində sosial infrastruktur sahələrinin inkişafında dinamizm prinsiplərini, fərdi yanaşma metodlarını və ayrı-ayrı sosial sahələrin üstün artması strategiyasını məhdudlaşdırırdı.

Sosial siyasət birbaşa bu sahələrin inkişafı ilə bağlı olduğuna görə qalıq prinsipi əsasında onun planlaşması ucqar rayonlarda iqtisadi inkişaf ilə sosial inkişaf arasında nisbətləri pozur. Ona görə də sosial infrastrukturun planlaşdırılmasının metodoloji əsasını və əsas nəzəri aspektlərini, hər bir regionun məhsuldar qüvvələrinin inkişaf istiqamətlərini müəyyən etməlidir. Sənayenin təşkili, planlaşma və onun emal sənayesinin inkişafında rolu, iqlim şəraiti, ölüm-doğum səviyyəsi, coğrafi yerləşmə xüsusiyyəti, əhalinin məskunlaşması sosial obyektlərinin ərazi planlarının əsaslarını təşkil edir. Planlaşma və idarəetmə sistemində sosial obyektlərin ərazi, sahə, təşkilati quruluşu həm iqtisadi, həm də sosial səmərə baxımından qiymətləndirilir.

Əhalinin tələbatı əldə olunan maddi və mənəvi nemətlərə, xidmətə olan ehtiyacları ilə müəyyən olunur. Onun formalaşmasına coğrafi, iqtisadi və demoqrafik faktorlar təsir göstərir. Ona görə də tələbat əhali istehlakının formalaşmasının əsas amillərindən biridir. Əhali istehlakı il ərzində istifadə olunan maddi və mənəvi nemətlərin, ayrı-ayrı xidmətlərin ümumi miqdarını, natural və dəyər formasında onun quruluşunu müəyyən edir. Əhalinin istehlakının tənzimlənməsi iki əsas nəzəri-metodoloji baxımdan nəzərdən keçirilir[3].

1. İstehlak səviyyəsi həyat səviyyəsinin tənzimlənməsi üçün sintetik ümumiləşdirilmiş göstərici olduğuna görə həyat səviyyəsinin formalaşması baxımından tətbiq olunur, planlaşdırılır;

2. İstehlakın strukturnun yaxşılaşdırılması onun ümumi həcminin atrırılması, istehsalın təkmilləşdirilməsi, onun əsas istiqamətlərinin müəyyən edilməsi üçün həlledici rol oynayır. Həmçinin qeyd etmək yerinə düşər ki, istehlakda əmtəə-pul münasibətlərinin formalaşmasının bazar

---

[3] Əlirzayev Ə. Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi", Bakı, 2010, s. 28.

iqtisadiyyatı şəraitində əsas amillərinə əhalinin gəlirləri və əhaliyə əmtəə təklifini, xidmət sahələrinin inkişafını, onların əhaliyə göstərdikləri xidmətin strukturunu, əhalinin demoqrafik və digər tərkibini, onun məskunlaşma dərəcəsi və məşğulluğunun quruluşunu aid etmək lazımdır.

İkinci Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının da inkişafı ilə bağlı mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. 2010-cu ilin nəticələri və muxtar respublikanın sosial-iqtisadi həyatında müşahidə olunan dinamik artım bu Dövlət Proqramının da uğurla yekunlaşacağına təminat verir. Son illər Naxçıvan MR-in sosial-iqtisadi inkişafını xarakterizə edən göstəricilərin səviyyəsində dinamika özünü biruzə verməkdədir. Bu isə regionun inkişafında iqtisadi artımın təzahürü kimi səciyyələnir. Buna misal olaraq səhiyyənin əsas göstəricilərini nəzərdən keçirmək yerinə düşərdi.

***Cədvəl 1***

***Naxçıvan Muxtar Respublikası üzrə səhiyyənin əsas göstəriciləri***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün ixtisaslardanolan həkimlər -sayı, nəfər | 677 | 683 | 660 | 647 | 741 | 718 | 780 | 805 | 800 | 851 | 799 |
| Əhalinin hər 10000 nəfərinə | 19 | 19 | 18 | 17 | 20 | 19 | 20 | 21 | 20 | 21 | 20 |
| Orta ixtisaslı tibb işçilərininsayı, nəfər | 2831 | 2824 | 2781 | 2763 | 2933 | 3008 | 3016 | 2953 | 2701 | 2659 | 2570 |
| Əhalinin hər 10000 nəfərinə | 78 | 77 | 75 | 74 | 78 | 79 | 78 | 76 | 68 | 66 | 63 |
| Xəstəxana müəssisələri - sayı | 53 | 53 | 53 | 52 | 55 | 47 | 45 | 46 | 43 | 45 | 44 |
| Xəstəxana çarpayıları - sayı | 3550 | 3540 | 3540 | 3540 | 3895 | 3570 | 3335 | 3114 | 2990 | 3024 | 3082 |
| Əhalinin hər 10000 nəfərinə | 98 | 97 | 96 | 95 | 104 | 94 | 87 | 80 | 76 | 76 | 75 |
| Əhaliyəambulatoriya-poliklinika yardımı göstərən müalicə müəssisələri | 103 | 104 | 102 | 102 | 105 | 109 | 108 | 120 | 119 | 119 | 120 |
| Ambulatoriya-poliklinika müəssisələriningücü (bir növbədə gəlişlərin sayı), nəfər | 8912 | 8956 | 8920 | 8920 | 9105 | 8940 | 8945 | 9788 | 9196 | 9187 | 9182 |
| Əhalinin hər 10000 nəfərinə | 247 | 245 | 242 | 240 | 242 | 235 | 232 | 236 | 233 | 230 | 224 |
| Qadın məsləhətxanalarının, uşaq poliklinikalarıvə ambulatoriyalarının sayı (müstəqil və d. uyğun müəssisələrintərkibinə daxil olan) | 89 | 87 | 87 | 87 | 87 | 98 | 94 | 102 | 101 | 101 | 101 |
| Hamilə və zahı qadınlarüçün çarpayıların sayı (həkim və ginekoloji çarpayılar daxil olmaqla) | 327 | 319 | 315 | 315 | 319 | 307 | 258 | 237 | 231 | 231 | 231 |

**Qeyd:** Səhiyyə üzrə göstəricilər 2004-cü ildən tibb müəssisələri olan digər nazirlik və idarələr, 2007-ci ildən isə qeyri-dövlət müəssisələri daxil olmaqla verilmişdir.

**Mənbə:** Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları

Cədvəldən görünür ki, əsas etibarı ilə səhiyyənin kadr potensialı və maddi-texniki bazasının vəziyyəti hansı meyldə inkişaf etmişdir. Lakin bununla belə səhiyyənin, sosial sahə kimi digər göstəriciləri də vardır ki, onlar öz mahiyyəti etibarı heç də cədvəldəki göstəricilərdən geri qalmır. Məsələn, 2012-ci ildə 239 tibb müəssisəsi tərəfindən əhaliyə xidmət göstərilmişdir ki, bu da müəssisə sayının 21 vahid artdığını göstərir. Bu əsasən kəndlərdə yaradılan və ilkin səhiyyə xidmətlərini göstərməsi nəzərdə tutulan tibb ocaqları hesabına baş vermişdir. Həmin dövrdə 762 həkim, 2185 orta ixtisaslı tibb işçisi fəaliyyət göstərmişdir. Dinamik inkişaf meyli həmin sayların azalmasını göstərsə də, fikrimizcə, bu, ilk növbədə iki amillə izah olunmalıdır: bir tərəfdən tibbi xidmətlərin və imkanların avtomatlaşdırılması səviyyəsindəki yüksəlməsi; digər tərəfdən isə səhiyyə sahəsindəki əmək ödənişi səviyyələrinin aşağı olması. 2012-ci ildə muxtar respublikada əhalinin hər 10000 nəfərinə 18, 2 nəfər həkim, 51, 8 orta ixtisaslı tibb işçisi düşmüşdür. Yeni doğulan uşaqların sayı 9621 olsa da (keçən ilə nisbətən 783 uşaq azdır), 1 yaşına çatmadan uşaq ölümünün səviyyəsi hər 1000 nəfər doğulana 0, 7 nəfər təşkil etmişdir ki, bu da keçən ilə nisbətən 0, 3 nəfər azdır. Səhiyyənin keyfiyyətinin yüksəlməsinə şahidlik edən digər bir amil isə onun göstərdiyi xidmətlərin növ və mürəkkəbliyinin artmasıdır. Belə ki, 2012-ci ilin 11 ayı ərzində 50 nəfərə kardiocərrahiyə əməliyyatı, 71 nəfərə koronarangioqrafiya manipulyasiyası aparılmış, 151 mürəkkəb göz əməliyyatı edilmiş və s.

Təhsil sferası da qeyri-istehsal sahəsi olub, əhalinin, iqtisadiyyatın tələbatına uyğun ixtisaslı kadrların hazırlanması məqsədini güdür. Təhsil, proses kimi öz sistemini formalaşdırır. Müasir şəraitdə təhsil sahəsi ümumi iqtisadi sistemin, o cümlədən istehsal, elmi-texniki tərəqqi ixtisaslı, dünyagörüşlü kadrların yetişdirilməsi, hazırlanması üçün zəruri olan peşə biliklərinin verilməsinə xidmət edir. Onun maddi əsasını pullu və pulsuz təhsil sistemləri təşkil edir. Təhsilin maliyyələşmə mənbəyinə ümumilikdə nəzər saldıqda, xüsusi kütlə baxımından əsas ödəniş istiqamətinin dövlət büdcəsi olduğu aydınlaşır. Respublikada son beş il üzrə təhsilə ayrılan vəsait büdcə xərclərinin 20-25%-i arasında tərəddüd etmişdir. Naxçıvan MR-də isə bu göstərici illər üzrə 12-16% təşkil edir. Təhsilin maddi-texniki bazasının formalaşdırılması məqsədlərindən biri onun keyfiyyətinin yüksəldilməsidir. Ona görə də iqtisadi göstəricilərə gəldikdə hər tələbəyə (şagirdə) düşən əsas fondlar, dövriyyə vəsaitləri, kapital qoyuluşu və digər göstəricilər istifadə olunur. Təhsilin iqtisadi göstəriciləri onun səmərəli təşkili ilə əlaqədardır və çoxmərhələli prosesi təcəssüm etdirir.

*Cədvəl 2*

***Naxçıvan Muxtar Respublikası üzrə təhsil sahəsinin əsas göstəriciləri***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Məktəbəqədər təhsil müəssisələrinin sayı (ilin sonuna)- cəmi | 103 | 99 | 100 | 90 | 79 | 75 | 73 | 38 | 15 | 15 | 14 |
| O cümlədən: Dövlət | 103 | 99 | 100 | 90 | 79 | 75 | 73 | 38 | 15 | 15 | 14 |
| Məktəbəqədər təhsilmüəssisələrində uşaqların sayı- cəmi, nəfər | 5507 | 5207 | 5183 | 4701 | 4462 | 4161 | 3758 | 2312 | 1646 | 1785 | 2033 |
| Əyani ümumi təhsil müəssisələrinin sayı, cəmi | 233 | 234 | 233 | 232 | 228 | 228 | 224 | 223 | 221 | 221 | 223 |
| O cümlədən: Dövlət | 233 | 234 | 233 | 232 | 228 | 228 | 224 | 223 | 221 | 221 | 223 |
| Əyani ümumi təhsil müəssisələrində şagirdlərin sayı-cəmi nəfər | 73612 | 74046 | 73900 | 72182 | 67718 | 63569 | 59854 | 57319 | 54185 | 51846 | 49920 |
| O cümlədən: Dövlət | 73612 | 74046 | 73900 | 72182 | 67718 | 63569 | 59854 | 57319 | 54185 | 51846 | 49920 |
| Əyani ümumi təhsil müəssisələrindəqızların sayı-cəmi, nəfər | 34342 | 34704 | 33165 | 34847 | 32884 | 31218 | 29823 | 28087 | 25723 | 24353 | 23241 |
| Əyani ümumi təhsilmüəssisələrində müəllimlərin (əsas heyət) sayı-cəmi, nəfər | 8269 | 8547 | 8636 | 8687 | 8436 | 8496 | 8535 | 8334 | 8641 | 8352 | 8330 |
| O cümlədən: Dövlət | 8269 | 8547 | 8636 | 8687 | 8436 | 8496 | 8535 | 8334 | 8641 | 8352 | 8330 |
| Peşə məktəblərininməktəblərininvə peşəlitseylərinin sayı (ilin sonuna) | 6 | 6 | 6 | 6 | 4 | 4 | 4 | 3 | 3 | 3 | 4 |
| Peşə məktəblərində və litseylərində şagirdlərin sayı- cəmi, nəfər | 772 | 812 | 686 | 579 | 467 | 499 | 544 | 534 | 367 | 387 | 447 |
| Orta ixtisastəhsil müəssisələrinin sayı- cəmi | 4 | 4 | 4 | 4 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| O cümlədən: Dövlət | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| Qeyri-dövlət | 1 | 1 | 1 | 1 | - | - | - | - | - | - | - |
| Orta ixtisas təhsili müəssisələrində tələbələrin sayı, nəfər | 1235 | 1016 | 1039 | 1227 | 1255 | 1388 | 1136 | 1034 | 1166 | 1295 | 1310 |
| Əhalinin hər 10000 nəfərinə orta ixtisas təhsili müəssisələrindətələbələrin sayı | 34 | 28 | 28 | 33 | 33 | 36 | 30 | 27 | 30 | 32 | 32 |
| Orta ixtisastəhsil müəssisələrinə qəbul olunantələbələrin sayı- cəmi, nəf. | 370 | 346 | 437 | 438 | 385 | 386 | 301 | 301 | 432 | 439 | 446 |
| O cümlədən: Dövlət | 318 | 316 | 410 | 438 | 385 | 386 | 301 | 301 | 432 | 439 | 446 |
| Qeyri-dövlət | 52 | 30 | 27 | - | - | - | - | - | - | - | - |
| Orta ixtisas təhsili müəssisələri tərəfindənburaxılan mütəxəssislərin sayı-cəmi, nəfər | 431 | 277 | 335 | 302 | 282 | 324 | 421 | 387 | 334 | 282 | 370 |
| O cümlədən: Dövlət | 402 | 253 | 288 | 269 | 282 | 324 | 421 | 387 | 334 | 282 | 370 |
| Qeyri-dövlət | 29 | 24 | 47 | 33 | - | - | - | - | - | - | - |

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin hər 10000 nəfərinə orta ixtisas təhsilimüəssisələri tərəfindən buraxılan ütəxəssislərin sayı | 12 | 8 | 9 | 8 | 8 | 9 | 11 | 10 | 8 | 7 | 9 |
| Ali təhsil müəssisələrininsayı- cəmi | 2 | 2 | 2 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| O cümlədən: Dövlət | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| Qeyri-dövlət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| Ali təhsil müəssisələrində tələbələrin sayı-cəmi, nəf. | 3629 | 3838 | 4532 | 4390 | 4663 | 4574 | 4668 | 4696 | 4881 | 5052 | 5164 |
| O cümlədən: Dövlət | 3037 | 3130 | 3371 | 3630 | 3842 | 3840 | 3870 | 3852 | 3950 | 4095 | 4258 |
| Qeyri-dövlət | 592 | 708 | 1161 | 760 | 821 | 734 | 798 | 844 | 931 | 957 | 906 |
| Ali təhsil müəssisələrində oxuyan qadınların sayı-cəmi, nəfər | 1704 | 1986 | 2283 | 2373 | 2524 | 2480 | 2551 | 2497 | 2596 | 2736 | 2858 |
| O cümlədən: Dövlət | 1392 | 1592 | 1761 | 1931 | 2056 | 2062 | 2146 | 2064 | 2125 | 2242 | 2393 |
| Qeyri-dövlət | 312 | 394 | 522 | 442 | 468 | 418 | 405 | 433 | 471 | 494 | 465 |
| Əhalininhər 10000 nəfərinə ali təhsil müəssisələrində tələbələrin sayı | 101 | 106 | 123 | 118 | 124 | 120 | 121 | 120 | 124 | 126 | 127 |
| Ali təhsil müəssisələrinə qəbul olanların sayı: bakalavriata-cəmi, nəfər | 751 | 883 | 877 | 968 | 869 | 1003 | 988 | 1003 | 1108 | 1146 | 1176 |
| O cümlədən: Dövlət | 626 | 755 | 798 | 809 | 754 | 819 | 802 | 807 | 870 | 924 | 1034 |
| Qeyri-dövlət | 125 | 128 | 79 | 159 | 115 | 184 | 186 | 196 | 238 | 222 | 142 |
| Ali tədris müəssisələritərəfindən buraxılan mütəxəssislərin sayı-cəmi, nəfər | 850 | 612 | 1033 | 797 | 1050 | 1216 | 1109 | 1164 | 1085 | 1175 | 1199 |
| O cümlədən: Dövlət | 680 | 514 | 775 | 717 | 760 | 931 | 957 | 990 | 924 | 977 | 948 |
| Qeyri-dövlət | 170 | 98 | 258 | 80 | 290 | 285 | 152 | 174 | 161 | 198 | 182 |
| Ali təhsil müəssisələri tərəfindən buraxılan mütəxəssislərin ümumi sayından diplom almışdır: bakalavr- cəmi, nəfər | 825 | 580 | 991 | 751 | 1002 | 1124 | 1009 | 1087 | 1025 | 1090 | 1130 |
| O cümlədən: Dövlət | 655 | 487 | 733 | 671 | 712 | 839 | 857 | 913 | 866 | 896 | 948 |
| Qeyri-dövlət | 170 | 93 | 258 | 80 | 290 | 285 | 152 | 174 | 163 | 194 | 182 |
| magistr-cəmi, nəfər | 25 | 32 | 42 | 46 | 48 | 92 | 100 | 77 | 60 | 85 | 69 |
| Əhalinin hər 10000 nəfərinə ali təhsil müəssisələri tərəfindənburaxılan mütəxəssislərin sayı | 24 | 17 | 28 | 21 | 29 | 32 | 29 | 30 | 27 | 29 | 28 |

Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları

Bundan başqa qeyd olunmuşdur ki, sahələrin idarə olunması onun mülkiyyət formaları, təşkilati quruluşu və kompleks təyinatlı xidmət göstərməsi baxı-mından təsnifləşdirilir və ixtisaslaşdırılır. Bu obyektlər mədəniyyətin məhsuluna olan tələbatla ölçülür. Həmin tələbatın ödənilməsi isə dinamik

olaraq tələba-tın özünün dəyişməsi, onun daxili və xarici amillərinin dinamikası, həmçinin resurs potensialı ilə ölçülür. Mədəni tələbat xarakter etibarı ilə kəmiyyət və keyfiyyət dəyişmələrinə məruz qalan və bir sıra iqtisadi, sosial amillərdən asılı olan, dəyişən xarakterik prosesdir. Ona görə də mədəni tələbatın sosial amilləri, sosial tərəfi bizim üçün daha səciyyəvidir.

***Cədvəl 3***

***Naxçıvan Muxtar Respublikası üzrə mədəniyyətin əsas göstəriciləri***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kütləvi kitab-xanaların sayı | 293 | 293 | 293 | 292 | 293 | 234 | 234 | 234 | 234 | 235 | 237 |
| Onlarda kitab və jurnalların sayı, min nüsxə | 2409, 8 | 2387, 7 | 2304 | 2291, 7 | 2279, 3 | 2284, 5 | 2284, 5 | 2297 | 2368, 1 | 2144, 7 | 2150, 6 |
| Əhalinin hər 1000 nəfərinə, nüsxə | 6692 | 6542 | 6249 | 6157 | 6064 | 6012 | 5948 | 5906 | 6001 | 5363 | 5244 |
| Klub müəssisələrinin sayı | 251 | 247 | 249 | 245 | 245 | 228 | 228 | 226 | 226 | 227 | 229 |
| Tamaşaçı və mühazirə zallarında yerlərin sayı | 46035 | 47407 | 40072 | 38382 | 37240 | 35120 | 35120 | 35120 | 35614 | 34710 | 35660 |
| Kino qurğularının sayı | - | - | - | - | 5 | 5 | 5 | 5 | 5 | 5 | 4 |
| Kinoseanslara gələnlərin sayı: min nəfər | - | - | - | - | 2, 2 | 3, 3 | 7, 6 | 7, 7 | 8, 1 | 9, 1 | 9, 3 |
| Əhalinin hər 1000 nəfərinə | - | - | - | - | 6 | 9 | 20 | 20 | 21 | 23 | 23 |
| Peşəkar teatrların sayı | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 3 | 3 |
| Teatrlara gedənlərin sayı: min nəfər | 49, 1 | 37, 4 | 34, 5 | 21, 2 | 13, 9 | 29, 8 | 19, 2 | 20, 2 | 21, 5 | 29, 3 | 30, 5 |
| Əhalinin hər 1000 nəfərinə | 136 | 102 | 94 | 57 | 37 | 78 | 50 | 52 | 54 | 73 | 75 |
| Konsert müəssisələrinin sayı | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| Konsertlərə gedənlərinsayı, minnəfər | 17, 3 | 24, 3 | 9, 2 | 3, 8 | 2, 3 | 3, 1 | 3, 4 | 10, 1 | 27, 4 | 32, 3 | 36, 0 |
| Əhalinin hər 1000 nəfərinə | 48 | 67 | 25 | 10 | 6 | 8 | 9 | 26 | 69 | 81 | 89 |
| Muzeylərinsayı | 16 | 14 | 18 | 19 | 19 | 20 | 20 | 21 | 21 | 21 | 23 |
| Muzeylərə gedənlərin sayı, min nəfər | 120, 3 | 108, 3 | 122, 5 | 133, 7 | 220, 3 | 257, 3 | 220, 6 | 227, 4 | 229, 3 | 233, 5 | 270, 8 |
| Əhalinin hər 1000 nəfərinə | 334 | 297 | 332 | 359 | 586 | 677 | 574 | 585 | 581 | 584 | 667 |
| Mədəniyyət və istirahət parklarının sayı | 2 | 2 | 2 | 18 | 56 | 94 | 74 | 61 | 63 | 50 | 50 |
| Daşınmaz tarixi-mədəniyyət abidələrinin sayı | 686 | 686 | 686 | 686 | 686 | 686 | 686 | 686 | 686 | 686 | 686 |

Mənbə: Naxçıvan MRDövlət Statistika Komitəsininməlumatları

Cədvəldəkilərlə yanaşı mədəni irsimizin qorunub-saxlanılması və gələcək nəsillərə ötürülməsi sahəsində də iqtisadi tədqiqatlar özünəməxsusluğu ilə fərqlənir. Qədim tarixi və mədəni ənənələrinə malik bu diyar eyni zamanda mədəniyyət sahəsindəki mirasın qoruyucusu kimi də çıxış edir. Təkcə bir faktı nəzərə çatdırmaq yerinə düşər ki, 2011-ci ildə 1 mədəniyyət ocağının tikintisi ilə yanaşı 9 abidənin bərpası da həyata keçirilmişdir.

Bu fəsildə həmçinin göstərilmişdir ki, mənzil-kommunal təsərrüfatı əhalinin mənzilə olan tələbatını və mənzil şəraitinin yaxşılaşması üçün xidmət sahəsi olub, sosial infrastrukturun tərkib elementidir. Bu sahənin

fəaliyyəti iqtisadiyyatın və sosial inkişafın bağqa sahələri ilə əlaqəsini təmin edir. Onun fəaliyyətinin əsas meyarını sosial tələbat olan mənzilə ehtiyaclar təşkil edir. Ona görə də mövcud şəraitdə əhalinin mənzil təminatı səviyyəsini öyrənmək, sonra isə təminatın yaxşılaşması yollarını tapmaq problemi meydana çıxır. Mənzil-kommunal sahəsi öz fəaliyyətini həmçinin iqtisadi meyar üzərində qurur. Belə ki, bu sferanın məhdud resursları, maliyyə, əmək, mənzil fondları mövcuddur. Bu resurslar sahəsində onun inkişaf etdirilməsi bütövlükdə sahənin özünəməxsus problemidir. Mənzilə olan ehtiyacların ödənilməsi ən çox kapital qoyuluşu və mənzil tikintisi ilə bağlıdır. Onun planlaşması sosial normativlər baxımından həyata keçirilir. İnsanların inkişafı üçün normal həyat şəraiti hər nəfərə və ailəyə düşən mənzil normalarını planlaşdırır. Əhalinin artım tempi, sıxlığı, miqrasiya mənzil-kommunal təsərrüfatının inkişafı və ərazi-sahə üzrə yerləşməsinin aparıcı istiqamətlərini təşkil edir. Mənzil tikintisi problemi isə təkcə tələbatla yox, həm də resurs imkanları ilə müəyyən olunur. Bu fəsildə həmçinin elmin planlaşdırılması və tənzimlənməsi haqda da fikirlər söylənilmişdir.

***Cədvəl 4***

***Naxçıvan Muxtar Respublikası üzrə elmin əsas göstəriciləri***

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|
| Tədqiqat və işləriyerinə yetirəntəşkilatların sayı | 6 | 6 | 6 | 6 | 6 |
| Tədqiqat işləri il məşğul olan heyətin sayı | 340 | 349 | 357 | 354 | 369 |
| o cümlədən qadınlar, nəfər | 141 | 147 | 145 | 136 | 139 |
| Onlardanalimlik dərəcəsi alanlar: elmlər doktorları, nəfər | 8 | 10 | 10 | 13 | 14 |
| o cümlədən qadınlar, nəfər | - | - | - | - | - |
| Fəlsəfə doktorları (elmlər namizədləri) | 22 | 23 | 25 | 25 | 28 |
| o cümlədən qadınlar, nəfər | 2 | 3 | 4 | 4 | 7 |
| Tədiqat işlərini yerinə yetirən, ali məktəblərdə çalışan elmi-pedaqoji işçilərin sayı, nəfər | 431 | 431 | 434 | 436 | 435 |
| o cümlədən qadınlar, nəfər | 143 | 145 | 148 | 149 | 149 |
| Onlardanalimlik dərəcəsi alanlar: elmlər doktorları, nəfər | 21 | 27 | 24 | 27 | 26 |
| o cümlədən qadınlar, nəfər | - | - | 1 | 1 | 1 |
| Fəlsəfə doktorları (elmlər namizədləri) | 166 | 168 | 170 | 193 | 202 |
| o cümlədən qadınlar, nəfər | 25 | 24 | 32 | 43 | 46 |
| Bir nəfər fəlsəfə doktoruna düşən tələbə sayı, nəfər | 13 | 13 | 13 | 15 | 13 |
| Fəlsəfə doktoru hazırlanması proqramınaqəbul, nəfər | 3 | 2 | 4 | 6 | - |
| Fəlsəfə doktoru hazırlanması proqramını bitirənlər, nəfər | 2 | 2 | 5 | 4 | 5 |
| Elmlər doktiru hazırlanması proqramını həyata keçirən müəssisələrinsayı | 1 | 1 | 1 | 1 | 1 |
| Elmlər doktiru hazırlanması proqramı üzrə təhsil alanların sayı, nəfər | 2 | 1 | 1 | 3 | 3 |
| o cümlədən qadınlar, nəfər | - | - | - | - | - |
| Elmlər doktiru hazırlanması proqramına qəbul, nəfər | - | 1 | - | - | - |
| o cümlədən qadınlar, nəfər | - | - | - | - | - |
| Elmlər doktiru hazırlanması proqramını bitirənlər, nəfər | - | 1 | - | 1 | - |
| o cümlədən dissertasiya müdafiə etməklə | - | - | - | - | - |
| Dövlət büdcəsindən elmə çəkilən xərclər, mln. manat | 1, 1 | 1, 4 | 1, 7 | 1, 6 | 2, 4 |
| Tədqiqat işlərində istifadə olunan əsas vəsaitlərin dəyəri, mln. | 2, 6 | 3, 9 | 4, 7 | 5, 6 | 4, 6 |

| manat | | | | | |
|---|---|---|---|---|---|

Mənbə: Naxçıvan MRDövlət Statistika Komitəsininməlumatları

Cədvəlin davamı olaraq qeyd etmək yerinə düşər ki, elmi müəssisə və işçi saylarında demək olar ki, 2011 və 2012-ci illərdə dəyişiklik baş verməmişdir. Lakin bununla belə elmi istiqamətin öhdəsində olan işlər davam etdirilmişdir. Belə ki, təkcə 2011-ci ildə 8 nəfər elmlər doktoru, 11 nəfər isə fəlsəfə doktoru adını almaq üçün dissertasiya müdafiə etmiş, 100 yaxın müxtəlif səviyyəli və səpkili elmi tədbir keçirilmişdir. Elmi-texniki potensialın inkişafında iqtisadi problemlər dövlət maliyyəsi və sifarişlə reallaşan elmi işlərlə ifadə olunur. Dövlət büdcəsi elmə, onun tətbiqinə istiqamətlər üzrə vəsait ayırır. Ali təhsil sistemində elmi axtarışlar üçün institutlara vəsait sifarişlə, yaxud büdcə ayırmaları ilə maliyyələşdirilir. Bir faktı da qeyd etmək yerinə düşər ki, 2011-ci ildə elmi mühit ictimaiyyətə 67 kitab və monoqrafiya, 147 metodik vəsait, 1000-ə yaxın dəyərli elmi məqalə və tezis töhvə vermişdir.

Nəqliyyat sahələri əhalinin sərnişin və yükdaşıma nəqliyyatına olan tələbatı ödəmək üçündür. Ona görə də nəqliyyat istehsal əlaqələrinin davamı kimi fəaliyyət göstərir, əhalinin sosial, həyat səviyyəsinin yüksək olmasına şərait yaradır. Nəqliyyatın işinin keyfiyyətindən kənd və şəhər əhalisinin mədənimaişət şəraiti, işəgetmə və qayıtma imkanları, asudə vaxtın məqsədəuyğun, maraqlı təşkili bilavasitə asılıdır. Azərbaycanın nəqliyyat sistemi respublika istehsal kompleksinin tərkib hissəsi kimi maddi və qeyri-maddi istehsal sahələri arasında iqtisadi əlaqələri həyata keçirir, iqtisadi rayonlar arasında ərazi əmək bölgüsünün, xarici iqtisadi əlaqələrin reallaşmasını təmin edir. Xarici əlaqələrdə dəmir yolu və dəniz nəqliyyatı, neft-qaz məhsullarının ixracında isə boru nəqliyyatı aparıcı olduğu halda, Azərbaycandaxili daşımaların əksər hissəsi avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilir. Bununla bərabər son dövrlərdə avtomobil nəqliyyatının xarici daşımalarda rolu kəskin artmışdır (təqribən 37%). Muxtar respublikanın blokadada olduğu şəraitdə dəmir yolu daşımalarının səviyyəsi böyük həcmdə azalaraq özünün yerinə yetirdiyi işlərin xeyli hissəsinin avtomobil nəqliyyatına vermişdir. Hal-hazırda yükdaşımada ən çox istifadə olunan nəqliyyat növü də məhz qeyd etdiyimiz istiqamət hesab olunur.

***Cədvəl 5.***

***Naxçıvan MR üzrə nəqliyyat və rabitənin əsas göstəriciləri***

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| Avtomobil nəqliyyatı ilə yük daşınması, min ton | 7033 | 7472 | 8042 | 8703 | 9723 | 11153 |
| Yük dövriyyəsi, mln. ton/km | 423, 7 | 497, 5 | 552, 8 | 598, 2 | 636, 1 | 678, 3 |
| Avtomobil nəqliyyatı ilə sərnişin daşıma, min nəfər | 39185 | 41348 | 74395 | 52409 | 56766 | 66684 |
| Sərnişin dövriyyəsi, mln. sərnişin/km | 137, 3 | 143, 5 | 151, 0 | 158, 0 | 166, 8 | 176, 3 |
| Avtomobillərin sayı – cəmi, ədəd | 18495 | 19933 | 21478 | 22980 | 23780 | 24990 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| O cümlədən: | | | | | | |
| Yek avtomobilləri | 5029 | 5905 | 6303 | 6699 | 6673 | 7043 |
| | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** |
| Avtobuslar | 1139 | 1385 | 1599 | 1581 | 1612 | 1685 |
| Sərnişin minik | 11907 | 12253 | 13100 | 14200 | 14878 | 15679 |
| Şəxsi minik | 11535 | 11856 | 12647 | 13698 | 14277 | 14983 |
| Xüsusi təyinatlı avtomobillər | 142 | 154 | 164 | 211 | 222 | 265 |
| Digər avtomobillər | 278 | 296 | 312 | 289 | 395 | 318 |
| Poçt, telefon, teleqrafmüəssisələrinin sayı, ədəd | 88 | 103 | 104 | 106 | 107 | 113 |
| Hər 100 ailəyədüşən telefon aparatlarının sayı, ədəd | 41 | 44 | 45 | 47 | 53 | 55 |
| Şəhərdə | 88 | 94 | 95 | 95 | 115 | 122 |
| Kənddə | 25 | 27 | 29 | 31 | 33 | 33 |

Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları

Qeyd olunduğu kimi, nəqliyyatın sistemləşdirilməsi və fəaliyyətinin səmərəli təşkili özünün ilk növbədə bu sahəyə qoyulan investisiyalarda və faktiki icra olunmuş daşıma həcmlərində göstərir. Diqqətə çatdırmaq yerinə düşər ki, ÜDM-in yaradılmasında 2011-ci ildə bu sahənin payı 33940, 5 min manat olmuşdur ki, bu 2010-cu ilə nisbətən 1, 9% çoxdur. Və yaxud, 2010-cu ildə nəqliyyat sektorunda yükdaşıma həcmi 11152, 7 min manat olub ki, bu da 2009-cu ilə nisbətən 14, 7% çoxdur. Analoji göstəriciyə növbəti il üçün baxaq. 2011-ci ildə nəqliyyat sektorunda yükdaşıma 12717, 3 min manat təşkil etmişdir ki, bu da özünən əvvəlki ilə nisbətən 14% çoxdur. Verilən rəqəmlər yükdaşımada olan dinamik artımdan xəbər verir. Digər tərəfdən 2011-ci ildə sərnişindaşımada da keçən illə müqayisədə 20, 8%-lik irrəliləmə müşahidə olunmuşdur. Muxtar respublikada yük və sərnişindaşımanın birlikdə fəaliyyəti nəticəsində 2011-ci ildə 39262 min manat gəlir əldə olunmuşdur ki, bu da keçən ilə nisbətən 14, 5% çoxdur. Həmin dövrdə nəqliyyat sferasına 64156 min manat investisiya qoyulub ki, bu da həmin il üçün faktiki investisya portfelinin 7, 8%-ni təşkil edir. 2010 və 2011-ci illərdə nəqliyyat sektorunda onun işinin asanlaşdırılması üçün görülən digər işləri yuxarıdakı cədvəl vasitəsilə nəzərdən keçirmək olar.

Dissertasiya işinin **“Naxçıvan MR-də sosial infrastrukturun inkişaf istiqamətləri”** adlanan üçüncü fəslində öncəki fəsillərdə aparılmış təhlil materiallarına əsaslanaraq Naxçıvan MR-də sosial sferanın inkişafı əhalinin sosial tələbatının yaxşılaşdırılmasının mühüm istiqaməti kimi nəzərdən keçirilmiş, bazar iqtisadiyyatı şəraitində əhalinin sosial tələbatının təmin edilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi yolları müəyyənləşdirilmişdir. Qeyd edilir ki, muxtar respublikada iqtisadi, sosial və mənəvi dəyərlərin saxlanması, inkişafı və təkrar istehsalı üçün vəsaitlərin toplanması və istifadəsi tədbirləri əsas yer tutur. Son illərdə bu regionda çoxlu sayda sosial infrastruktur obyekti tikilmiş, o cümlədən xeyli obyekt təmir-bərpa olunaraq istifadəyə verilmişdir.

*Cədvəl 6.*

***Naxçıvan MR-də sosial infrastruktur obyektlərinin istifadəyə verilməsi***

| | 2009 | 2010 | 2011 |
|---|---|---|---|
| **Elm və təhsil obyektləri** | 21 | 21 | 17 |
| O cümlədən: | | | |
| Elm | - | 1 | 3 |
| Səhiyyə | 13 | 16 | 11 |
| Mədəniyyət | 25 | 26 | 26 |
| **İnzibati binalar** | 37 | 30 | 41 |
| O cümlədən: | | | |
| Kənd mərkəzləri | 12 | 9 | 15 |
| Nasos stansiyaları | 14 | 3 | 4 |
| Subartezian | 22 | 24 | 15 |
| İdman obyektləri | 7 | - | 2 |
| Körpü | 8 | 13 | 8 |
| Kəhriz | 22 | 28 | 43 |
| Yarımstansiya | 175 | 178 | 142 |
| Cəmi: | 726 | 669 | 539 |

Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları

Naxçıvan MR-də sosial obyektlərin çox hissəsi dövlət tənzimlənməsi və dövlət maliyyə mexanizmləri vasitəsilə fəaliyyət göstərməkdədir. Belə ki, büdcədən ayırmalar birbaşa muxtar respublika üzrə maliyyələşdirilir. Blokada şəraitində yaşayan ərazidə təhsil, səhiyyə və mədəniyyət obyektlərinin xərc strukturunda normativ ayırmalar əsas götürülür. Zonamızda həmçinin daxili resursların yaratdığı yerli büdcəni də gəlirlərin inkişafı müəyyənləşdirir. Dövlət büdcəsinin formalaşmasında mərkəzi büdcə ayırmaları birbaşa sosial-iqtisadi inkişafınəsas istiqamətlərinə uyğun planlaşdırılır. Digər tərəfdən muxtar respublikada qeyri-dövlət maliyyə tələbləri hesabına yerli gəlirlər formalaşır. Naxçıvanda vergi və sosial müdafiə fonduna ayırmalar yolu ilə yerli büdcə və sosial müdafiə fondu formalaşır.

Tədqiqatda göstərilmişdir ki, sosial infrastruktur sferasında iqtisadi potensial həmçinin sosial mahiyyətlə yanaşı elmi-texniki tərəqqi, milli ənənə xüsusiyyətlərini saxlamaq və təkmilləşdirmək üçün əhəmiyyətlidir. Xidmət sferası, adətən, kiçik biznes obyekti olaraq məşğulluğun, əmək resurslarının istifadəsinə şərait yaradır. Bu sferada sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün heç də yüksək kapital zərurəti meydana çıxmır, kiçik xidmət yolu ilə ayrı-ayrı ailələr öz həyat səviyyəsinin yaxşılaşdıra bilərlər ki, bu da eyni zamanda rəqabət mühiti də yaradır. Xidmət sahəsi inhisarlaşmanın qarşısını alır və bu sferanın ÜDM-də xüsusi çəkisini artırır. Kiçik biznes obyekti olaraq xidmət sferasının inkişafı bir sıra məhsullara olan tələbatı ödəmək üçün şərait yaradır, ev təsərrüfatında məşğulluğun azalmasına, daha çox nəzəri baxımdan ailənin intellektual səviyyəsinin artmasına və

uşaqlar ilə məşğul olanlara şərait yaradır. Təbii ki, bu konseptual düşüncələrin arxasında gəlirlər rol oynayır, əhalinin bütövlükdə təminat səviyyəsi əsas götürülür. Hər bir ailədə ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın maksimal ödənilməsi imkanları təmin olunduqdan sonra xidmət sahəsinə ehtiyac genişlənir.

Xidmət növləri ehtiyacların ödənilməsi ierarxiyası baxımından müxtəlif əhali qrupları üçün eyni olmayan seçim qabiliyyətinə malikdir. Təhlillər göstərir ki, bəzi xidmət növləri, o cümlədən istirahət, xarici turizm, yüksək mənzil şəraiti xidməti, bəzi istehlak məhsullarının sifarişi, hazırlanması və ev mətbəxinə çatdırılması ancaq yüksək təminatlı ailələr üçün məqbul hesab edilə bilər, xidmət sferası isə indiki bazar iqtisadiyyatı şəraitində daha çox həm ümumi xidmət, həm də əhalinin orta təminatlı qrupları üzrə formalaşa və arta bilər.[4]

Əhalinin mənzil təminatı, xüsusi evlər, təsərrüfatlar, bir neçə minik maşınları ilə təminat, yüksək bilik almaq üçün fərdi təhsil sistemi əhali arasında xidmətin artmasına, genişlənməsinə gətirib çıxarır. Belə xidmət formaları gəlirlərin bölgüsü və yenidən bölgüsündə mühüm rol oynayır. Bu bölgü formaları leqallaşdıqca, aşkarlandıqca xidmət sferasının rolu böyüyür, xidmət sahəsinin vergi yükü üzrə bazanın genişləndirilməsində rolu dəqiqləşir. Belə ki, iqtisadiyyatın gizli tərəfi – uçota alınmayan xidmət potensialı dəqiqləşir və strateji inkişaf məsələləri, perspektiv proqnozlar daha real baş verir. Xidmət sferasının bu əlamətləri onun iqtisadi potensialında, təkrar istehsalında tam, bütövlükdə rolunu qiymətləndirməklə bu sferanın makroiqtisadi problemlərini tənzimləməyə şərait yaradır.

Bu fəsildə həmçinin qeyd edilir ki, Azərbaycan Respublikasının hal-hazırda blokadada yaşayan bir regionu kimi Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi inkişafın sürətləndirilməsi ölkənin milli-iqtisadi təhlükəsizliyinin təmin edilməsinin başlıca, ilkin şərtlərindən biri kimi çıxış edir. Ümummilli lider Heydər Əliyev cənabları tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasının ötən dövrdə ardıcıl şəkildə uğurla həyata keçirilməsi, bütövlükdə sosial-iqtisadi inkişafın müvəffəqiyyətini təmin etmiş, eyni zamanda respublikanın bütün regionlarında yeni iş yerlərinin açılması, əhalinin gəlirlərinin artırılması, sosial infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər görülür. Bu inkişafda özünəməxsus yeri olan Naxçıvan Muxtar

---

[4] Əlirzayev Ə. Q. , Aslanov S. İ. Turizmin inkişafının sosial-iqtisadi problemləri. Bakı: Adiloğlu, 2006, 163s.

Respublikasında həyata keçirilən çoxşaxəli quruculuq tədbirləri, ictimai həyatın bütün fəaliyyət istiqamətlərində əsaslı nailiyyətlərin əldə olunmasını təmin etmişdir.

Dissertasiya işinin "**Nəticə**" hissəsində tədqiqat nəticəsində əldə edilmiş əsas nəticələr, irəli sürülən təklif və tövsiyələr konkret şəkildə şərh edilmişdir.

**Dissertasiyanın işlənməsi müddətində mövzu üzrə iddiaçının aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Sosial infrastrukturun inkişafının dövlət tənzimlənməsi. // Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsinin aktual problemləri. Məqalələr toplusu. Naxçıvan: Məktəb nəşriyyatı , 2005, səh. 101-105.
2. Kənddə sosial infrastrukturun inkişafı / Naxçıvan MR-da aqrar islahatların gedişi və sosial iqtisadi perspektivləri. NDU-da keçirilmiş elmi konfransın materialları. Naxçıvan; Məktəb nəşriyyatı, 2008, səh. 87-90
3. Aqrar bölmədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinin iqtisadi əhə-miyyəti / Beynəlxalq iqtisadi əlaqələrin inkişafında regionların rolu və əhəmiyyəti. NDU-da keçirilən beynəlxalq elmi konfransın materialları, Naxçıvan; Qeyrət nəşriyyatı; 2009, səh. 92-95
4. İqtisadi artımın həyat səviyyəsinə və sosial sferanın inkişafına təsiri / İqtisadi artımın intensiv inkişaf problemləri. AKU-da keçirilən respublika elmi-praktiki konfransın materialları. Bakı:Kooperasiya, 2011, səh. 128-132.
5. Sosial infrastrukturun iqtisadiyyatın inkişafında rolu // Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, №1(37), Naxçıvan, Qeyrət nəşriyyatı, 2011, səh. 167-169.
6. Механизмы урегулирования социальных услуг отраслей обслуживания в регионе // Москва, Международный научный журнал №3, 2012 стр. 53-57

**Хавва Адыгезалова**

# ПРОБЛЕМЫ РАЗВИТИЯ РЕГИОНАЛЬНОЙ СОЦИАЛЬНОЙ ИНФРАСТРУКТУРЫ В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

## (На примере Нахчыванской Автономной Республики)

Диссертационная работа состоит из введения, 3-х глав, заключения и списка литературы. В введении диссертации обоснована актуальность темы, сформированы цели и задачи, определены объект, предмет, научное нов-шество, информационная база и практическое значение исследования. В первой главедиссертации, названной "Сущность, источники формирования и теоретико-методологические основы исследования социальной инфраструктуры", проведены обобщения, основанные на работах признанных иностранных исследователей и отечественных ученых, а также на основных научных результатах, к которым они пришли, дан сравнительный анализ концепций жизненного уровня, в особенности понятий социальной сферы, исследованных в современных классических школах, а также взглядов отечественных ученых на социальную инфраструктуру.

Вторая глава диссертационной работы называется "Механизмы планирования и урегулирования социальной инфраструктуры". Здесь наблюдены проводимые в жизнь за последние 20 лет в Нахчыванской Автономной Республике экономические реформы, оценено экономическое положение, исследованы формирование социальной сферы, а также влияние динамического развития социальной инфраструктуры на развитие экономики и жизненный уровень населения. Обоснования закреплены статистическими данными.

В названной же "Направления развития социальной инфраструктуры в Нахчыванской АР" третьей главе диссертационной работы изысканы направления повышения удельного веса социальной инфраструктуры региона, определена роль организации социальной сферы в развитии экономики региона. Проведены исследования в направлении формирования и повышения уровня развития социальной экономики в Нахчыванской АР.

В части "Заключения" диссертационной работы пояснены достигнутые в результате исследования основные положения,

выдвинуты конкретные предложения и рекомендации для развития продовольственного рынка в перспективе.

**Havva Adigezalova**

# Problems of development of regional social infrastructurein the conditions of market economy

**(On the basis of materials of the Nakhchivan Autonomous Republic)**

Dissertation work consists of introduction, 3 chapters, a result and the list of references. In introduction of the thesis relevance of a subject is proved, the purposes and tasks are created, the object, a subject, a scientific innovation, information base and practical value of research are defined.

In chapter 1 of the thesis called "Essence, sources of formation and teoretiko-methodological bases researches of social infrastructure" are conducted the generalizations based on works of recognized foreign researchers and domestic scientists, and also on the main scientific results to which they came, the comparative analysis of concepts of concepts of the market, in particular the concepts of the food market investigated at modern classical schools, and also views of domestic scientists of market categories is given.

Chapter 2 of work is called "Mechanisms of planning and settlement of social infrastructure". Здесь наблюдены put into practice for the last 20 years in the Nakhchyvansky Autonomous Republic economic reforms, the economic situation is estimated, formation of the social sphere, and also influence of dynamic development of the social sphere on development of economy and a population standard of living are investigated. Justifications are fixed by statistical data.

In called "The Directions of development of social infrastructure in Nakhchyvansky AR" to a chapter 3 of dissertation work are found the directions of increase of specific weight of social infrastructure of the region. the role of the organization of the social sphere in development of economy of the region is defined. Researches in the direction a formirovayeiya and increases of a level of development of social economy in Nakhchyvansky AR are conducted.

In the *"Result"* part of the dissertation main features of gained research work have been commented. Concrete offer and recommendations have been put forward for developing socialinfrastruktur  in perspective.

Çapa imzalanmışdır: 15.03.2013
Formatı: 60x90,16/1,həcmi:1.4ç/v.
Sifariş:№24, Tiraj:100

NDU-nun “Qeyrət” nəşriyyatının mətbəəsində çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАН[illegible] ОТДЕЛЕНИЕ**

*На правах рукописи*

**ХАВВА АСКЕР КЫЗЫ АДЫГЕЗАЛОВА**

# ПРОБЛЕМЫ РАЗВИТИЯ РЕГИОНАЛЬНОЙ СОЦИАЛЬНОЙ ИНФРАСТРУКТУРЫ В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

**(На примере Нахчыванской Автономной Республики)**

Специальность: 5311. 01 – Организация и управление предприятиями

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени доктора
философии по экономики

**НАХЧЫВАН – 2013**